# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№312/5** **24 iyul 2019-cu il**

**Auditorların vəzifələri və peşə məsuliyyətləri barədə auditor xidmətindən istifadə edənlərin və ictimaiyyətin məlumatlandırılmasına dair Şərh**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2019-cu il üzrə iş planının 1.17-ci «2018-ci ildə auditor xidməti bazarının öyrənilməsinə dair keçirilmiş sosioloji sorğunun nəticələrindən irəli gələn problemlərin həlli ilə bağlı tədbirlərin həyata keçirilməsi barədə» plan-proqramın 3-cü "Auditorların peşə məsuliyyətinin auditor xidmətindən istifadə edənlərə və ictimaiyyətə şərhinin çatdırılması" bəndinin icrasını təmin etmək məqsədilə Palatanın Hüquqi təminat və standartlaşdırma idarəsinin rəis əvəzi Q.Bayramov tərəfindən hazırlanmış "Auditorların vəzifələri və peşə məsuliyyətləri barədə auditor xidmətindən istifadə edənlərin və ictimaiyyətin məlumatlandırılmasına dair Şərh"in 2019-cu ilin 7 iyun tarixində Auditorlar Palatasında keçirilən "Dəyirmi masa"da müzakirədən sonra yenidən işlənib hazırlanmış layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditorların vəzifələri və peşə məsuliyyətləri barədə auditor xidmətindən istifadə edənlərin və ictimaiyyətin məlumatlandırılmasına dair Şərh" bəyənilsin (əlavə olunur).
2. Palatanın Hüquqi təminat və standartlaşdırma idarəsinin rəis əvəzi Q.Bayramova tapşırılsın ki, "Auditorların vəzifələri və peşə məsuliyyətləri barədə auditor xidmətindən istifadə edənlərin və ictimaiyyətin məlumatlandırılmasına dair Şərh"in KİV-də dərc etdirilməsi təmin edilsin.
3. Bu qərarın, "Auditorların vəzifələri və peşə məsuliyyətləri barədə auditor xidmətindən istifadə edənlərin və ictimaiyyətin məlumatlandırılmasına dair Şərh"in mətnlərinin Palatanın internet səhifəsində və sosial şəbəkələrində yerləşdirilməsi təmin edilsin.
4. Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasından xahiş edilsin ki, "Auditorların vəzifələri və peşə məsuliyyətləri barədə auditor xidmətindən istifadə edənlərin və ictimaiyyətin məlumatlandırılmasına dair Şərh"in təsərrüfat subyektlərinə çatdırılması məqsədilə öz texniki resurslarından istifadə edilməsinə şərait yaratsın.

**Şuranın sədri** **Vahid Novruzov**